

# AĞDAM: DÜNYAYA ÖRNƏK OLACAQ ŞƏHƏR

**Ağdam Ermənistanın hərbi təcavüzünə qarşı aparılan mübarizədə ön cərgədə olub, vuruşub, böyük itkilər verib. Bu fikri iyirmi beş il əvvəl ulu öndər Heydər Əliyev rayon ictimaiyyəti ilə görüşdə söyləmişdi. Onda hələ işğalın üçüncü ili tamam olurdu və unudulmaz lider ölkəni xaosdan, anarxiyadan yenicə xilas edib, köklü islahatlar aparmaqla müstəqil dövlətimizin təməlini möhkəmləndirirdi. Hələ qarşıda torpaqlarının iyirmi faizi düşmən tapdağında, əhalisinin on iki faizi qaçqın-köçkün vəziyyətində olan Azərbaycanı zamanın sınaqlarından keçirib dünyaya tanıtmaq, tərəqqi, inkişaf yoluna çıxarmaq vəzifəsi dururdu. Amma elə o zaman da ulu öndər gələcəyə dərin inamla deyirdi ki, "Qarabağsız, Ağdamsız Azərbaycan yaşaya bilməz!". Onun layiqli davamçısı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev rəşadətli Azərbaycan ordusu ilə ötən il təcavüzkar Ermənistanı məğlub edib torpaqlarımızdan qovaraq bu şüarı gerçəkləşdirdi, apardığı qətiyyətli hərbi-siyasi və diplomatik fəaliyyət, qazanılan möhtəşəm Zəfər sayəsində noyabrın 20-də, bir güllə belə atılmadan, Ağdamı Azərbaycana və ağdamlılara qaytardı...**

"1988-ci ildə Ermənistanın hərbi təcavüzünü, münaqişənin ilk qığılcımını Ağdamda hiss etmişlər," - bu sözlər də ulu öndərə məxsusdur. Qarabağda erməni separatizminə qarşı mübarizənin ilk şəhidləri olan iki ağdamlı gəncin - Əli və Bəxtiyarın xatirəsi bu gün də ehtiramla yad edilir.

**(davamı 9-cu səhifədə)**

## 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın 2-ci bəndinə əsas
## 20 noyabr 2020-ci ildə Ağdam rayonu işğaldan azad edilmişdi




# AĞDAM: DÜNYAYA ÖRNƏK OLACAQ ŞƏHƏR

**(əvvəli 1-ci səhifədə)**

Ulu öndər Heydər Əliyevin respublikada hakimiyyətə qayıdışından sonra qaçqın və məcburi köçkünlərlə iş sahəsində dövlət siyasətinin sistemli xarakter alması bu kateqoriyadan olan insanların yaşayış şəraitinin yaxşılaşdırılmasında və sosial müdafiəsinin gücləndirilməsində mühüm rol oynadı.

Birinci Qarabağ müharibəsində 160 minlik əhalisi olan rayonda altı minə yaxın vətən övladının şəhadətə yüksəlməsi bu qədim yurdun necə əzmlə, dəyanətlə, inadkarlıqla müdafiə olunduğunu göstərir. Bununla belə, xəyanətkar qüvvələrin siyasi hakimiyyət uğrunda silahlı qarşıdurmaya qədər gəlib çıxan çəkişmələri, dövlət idarəçiliyindəki səriştəsizliyi, hərbi quruculuğu bacarmaması, ölkədə cinayətkarlığın genişlənməsi və digər böhran halları erməni qəsbkarların öz çirkin niyyətlərini həyata keçirməsinə, torpaqlarımızı işğal etməsinə imkan yaratdı. O cümlədən Ağdamın ərazisinin 846,7 kvadratmetri - 77,4 faizi, bir şəhər, bir qəsəbə, 82 kənd işğal altına düşdü, bütün tarixi abidələr, maddi-mədəniyyət nümunələri məhv edildi. 1993-cü ildə Ağdam şəhərinin süquta uğradığı 23 iyul günü rayon əhalisi üçün düz iyirmi yeddi il ağrı, nisgil, hüzn günü oldu. Bu müddətdə məcburi köçkün həyatı yaşayan ağdamlılar da, xalqımızın bu tale ilə üzləşən digər nümayəndələri kimi dövlətin himayəsinə sığındılar.

Bu siyasəti davam etdirən Prezident İlham Əliyev ölkənin iqtisadi gücünü artırdıqca məcburi köçkünlərin sosial problemlərinin həlli daha da sürətləndi, onlar üçün müvafiq infrastruktura malik çoxsaylı müasir qəsəbələr və yaşayış kompleksləri salındı. Təkcə Ağdamda 18 belə böyük qəsəbə və 50 mənzilli bir yaşayış binası var. Sayı hazırda 204 minə çatan rayon əhalisinin 90 min nəfəri işğalda olmamış ərazilərdə yaşayır. Onu da qeyd edək ki, müvəqqəti rayon mərkəzi sayılan Quzanlı qəsəbəsində və digər kəndlərdə regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət proqramları çərçivəsində çoxlu sosial layihələr həyata keçirilib, tikinti-quruculuq işləri aparılıb, əhalinin yaşayış səviyyəsi yaxşılaşdırılıb.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev işğal dövründə doqquz dəfə Ağdam rayonunda olub. Bu il mayın 28-də Ağdamın Baş Planının təqdimatı ilə əlaqədar rayon ictimaiyyəti ilə keçirdiyi görüşdə dövlətimizin başçısı həmin dövrü xatırlayaraq deyib: "İşğal dövründə Ağdam şəhərinin dağıntılarını, o şəhərin bir hissəsini mən təmas xəttində dəfələrlə olarkən binokl ilə görürdüm. Hər dəfə, bax, təmas xəttində olarkən və bu dağıntıları uzaqdan seyr edərkən öz-özümə deyirdim ki, biz mütləq qayıdacağıq. Nəyin bahasına olursa-olsun qayıdacağıq. Tarixi ədaləti bərpa edəcəyik. Düşməni torpağımızdan qovacağıq və buna nail olduq".

Ağdam tarixən Qarabağın ürəyi - mərkəzi sayılıb. Həm strateji-çoğrafi mövqeyi, həm zəngin təbii-iqtisadi resursları, həm də işgüzar, bacarıqlı insanları ilə seçilən, milli dövlətçiliyə, elmimizə, mədəniyyətimizə görkəmli şəxsiyyətlər bəxş edən bu rayon İkinci Qarabağ - 44 günlük Vətən müharibəsində də cəhbənin ön xəttinin bütün ağırlıqlarına və ağrılarına mətanətlə sinə gərib, yerli sakinlər doğma yurdda möhkəm dayanıb, mərdliklə döyüşən hərbçilərimizə mənəvi dayaq olublar.

Ermənistanın ötən il sentyabrın 27-də hərbi mövqelərimizə və mülki əhaliyə qarşı növbəti düşmənçilik təxribatının ilk hədəfləri sırasında Ağdam da vardı. Aramsız artilleriya atəşləri keçmiş təmas xəttində mövqelərimizlə yanaşı, dinc əhalinin də başına, sözün həqiqi mənasında, yağış kimi yağdırılırdı. Nəticədə rayonun yaşayış məntəqələrində, ümumilikdə, 1500-dən çox evə, həmçinin onlarla qeyri-yaşayış sahəsinə, sahibkarlıq obyektinə, sosial və inzibati binalara, infrastruktura və kənd təsərrüfatına ziyan dəydi.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsində də həm peşəkar hərbçi, həm də səfərbər olunmuş və könüllü döyüşçü kimi çoxlu sayda ağdamlı iştirak edib, torpaqlarımızın azadlığı uğrunda mərdliklə vuruşub, qəhrəmanlıq nümunələri göstərib. Ağdamdan bu müharibədə 52 hərbçi, 11 mülki şəxs şəhid olub. Onların əksəriyyətinin dəfn edildiyi Quzanlı Şəhidlər xiyabanı müqəddəs ziyarətgahdır. Müharibə dövründə dağılmış evlər və obyektlər, dövlətimizin başçısının tapşırığına əsasən, bərpa edilib, təmiri mümkün olmayanların əvəzinə yenisi inşa olunub. Əhaliyə dəyən maddi ziyana görə də vətəndaşlara dövlətimiz tərəfindən kompensasiya ödənilib.

Bütün xalqımız kimi, ağdamlıların da şəhidlərimizə görə qəlbi göynəyir, övladını torpaqlarımızın azadlığı uğrunda qurban verən valideynlərə hamının ehtiramı sonsuzdur. Uğrunda öləni olmayan torpağı vətənə çevirmək mümkünsüzdür. Torpaqlarımızın işğaldan azad edilməsi - şəhid ailələri, müharibədə sağlamlıqlarını itirən insanlar və yurd-yuvası dağılıb viran qoyulan həmvətənlərimiz üçün ən böyük təsəlli, düşmən üzərində qazanılmış Zəfər isə sonsuz qürur mənbəyidir.

Mən özüm də məcburi köçkünəm və ötən il noyabrın 10-da cənab Prezidentin doğma Ağdamımızı işğalçıların döyüşsüz təhvil verəcəyi barədə müjdəsini eşidəndə sevincdən hönkürüb ağladım, noyabrın 20-də şanlı ordumuzun bölmələrinin iyirmi yeddi il əvvəl tərk etdiyim ana yurduma daxil olduğunu görəndə və dövlətimizin başçısının bu münasibətlə xalqımıza müraciətini dinləyəndə də eyni hissləri keçirdim.




Noyabrın 23-də isə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev birinci xanım Mehriban Əliyeva ilə birgə Ağdam şəhərində oldu, burada Azərbaycanın üçrəngli bayrağını qaldırdı, Məkkədən gətirdiyi "Qurani-Kərim"i şəhərdəki qismən salamat qalmış yeganə tikili olan Cümə məscidinə bağışladı. Ağdamın düşməndən bir güllə atılmadan geri alınması ilə bağlı dövlətimizin başçısının Ağdamdakı çıxışında dediklərini xatırlayıram: "Müharibənin bütün sirlərini açmaq, hələ ki, tezdir. Vaxt gələcək, çox maraqlı məsələlər üzə çıxacaq. Ancaq bu gün tam rahat deyə bilərəm ki, Ağdam əməliyyatı planlaşdırılırdı. Biz Ağdamı onsuz da alacaqdıq. Amma itkilər olacaqdı, özü də böyük sayda. Ona görə Şuşanı və noyabrın 9-da 70-dən çox kəndimizi azad edəndən sonra düşmənin beli qırıldı, təslim oldu, ağ bayraq qaldırdı, mənim şərtlərimə əməl etdi və öz məğlubiyyətini etiraf etdi".

Ağdamın işğaldan azad edilməsi tarixi hadisə idi. Möhtərəm Prezidentin qeyd etdiyi kimi, dağılmış Ağdam şəhəri erməni vəhşiliyinin şahididir. Ölkəmizin rəhbəri Cümə məscidinin qarşısından bütün dünyaya bəyan etdi: "Biz Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik. Heç kimdə bu haqda şübhə olmasın. Bu, böyük iş olacaqdır. Əlbəttə ki, böyük zəhmət tələb edəcək. Amma necə ki, biz 44 gün ərzində birlik göstərmişik, əminəm ki, azad edilmiş torpaqlarımızın bərpası işində də birlik, əzmkarlıq göstərəcəyik".

Bundan cəmi altı ay sonra - mayın 28-də, Müstəqillik Günündə yenidən Ağdama gələn möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev rayon ictimaiyyəti ilə görüşdü, şəhərin yeni Baş Planını təsdiqlədi, bərpa-quruculuq işlərinin təməlini qoydu. Rayonun işğaldan azad edilmiş hissəsində Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyi təşkil edildi.

Hazırda Ağdamda bərpa-quruculuq işləri dövlətimizin başçısının rəhbərliyi və tapşırığı ilə, işğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli üzrə Əlaqələndirmə Qərargahının nəzarəti altında sürətlə davam etdirilir.

Bu il sentyabrın 26-da mən də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Ağdamın işğaldan azad edilmiş əraziləri üzrə Prezidentin Xüsusi nümayəndəliyinin birgə təşkil etdiyi səfər zamanı doğma şəhərimdə olub, ermənilərin törətdiyi vandalizmi öz gözlərimlə gördüm. Gördüm ki, "vəhşi tayfa" Qarabağın toy otağını, bülbüllər sayrışan gül yatağını yerlə-yeksan edib, ən müqəddəs ziyarətgahımızı, tarixi min illərlə hesablanan qədim "Qarağacı" qəbiristanlığını şumlayıb, İmarətdə, Cümə məscidində öz ləyaqətsizliyini, vəhşiliyini göstərib, mədəni-mənəvi irsimizi yox etməyə, qan yaddaşımızdan silməyə çalışıb. Bu acı təəssürata təskinlik olan ən xoş mənzərə isə Ağdamda üçrəngli şanlı bayrağımızın dalğalanması və rayonumuzun cənub istiqamətindəki dağlarda hələ də yaşamağa davam edən ermənilərin bu mənzərəni görüb, dövlətimizin və xalqımızın gücündən, qüdrətindən qorxuya düşməsi idi... Ağdamdakı xüsusi nümayəndə Emin Hüseynov burada başlanmış bərpa-quruculuq işləri haqqında bizə məlumat verərkən dövlətimizin başçısının tapşırığını bir daha xatırlatdı: "Biz elə bir şəhər quracağıq ki, bütün dünya üçün örnək olacaqdır".

Son vaxtlar ağdamlı məcburi köçkünlərin və əslən bu rayondan olan şəxslərin doğma yerlərə mütəmadi səfərləri təşkil edilir. Ağdamdan olan məcburi köçkünlər doğma yurda qayıtmağa hazırlaşırlar və onlara bu imkanı yaradan möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, şanlı Ordumuza ürəkdən minnətdardırlar. Dövlətimizin başçısının Ağdamda olarkən dediyi sözlər hər bir ağdamlının müqəddəs amalını ifadə edir: "Bu gün buradayıq və bundan sonra əbədi burada olacağıq!".

**Möhtərəm RƏCƏBOVA,
"Respublika".**